BAKI UNİVERSİTETİNİN XƏBƏRLƏRİ

*№3 Humanitar elmlər seriyası 2014*

**UOT 94(479/24); 94(470)**

# XVI-XVIII ƏSRLƏR DƏRBƏNDİN MƏDƏNİ HƏYATI

**M.V.BƏHRƏMOVA**
***AMEA-nın A.A.Bakıxanov ad. Tarix İnstitutu***
***bahramova60@gmail.com***

*Məqalədə çoxsaylı mənbələr əsasında Dərbənd şəhəri və onun mədəni həyatı haqqında qısa məlumatlar verilir. Dərbənd Qafqazın mədəniyyət mərkəzlərindən biri olmuş, Azərbaycanın Dağıstanla iqtisadi-ticarət və mədəni əlaqələrində körpü rolunu oynamışdır.*

**Açar sözlər:** Dərbənd, elmi-mədəni həyat, dini təhsil

Azərbaycanın şimal-şərqində yerləşən Dərbənd şəhəri tarixən ölkədə baş verən hadisələrin mərkəzində duran şəhərlərdən biri olmuşdur.

Dərbənd tarixinin XII əsrdən etibarən son orta əslərə qədərki tarixi bir çox mənbələrdə öz əksini tapıb. Ümumilikdə şəhərin tarixini əks etdirən ərəb, alban, avropa, türk mənbələri mövcuddur. Onların sayı kifayət qədərdir. Lakin təqdim olunan iş əsasən son orta əsrləri əhatə etdiyinə gorə mühüm mənbələri qisa şərh etmək məqsədəuyğun olar.

Dərbəndin Səfəvilər dövlətinin hakimiyyəti illərindəki dövrünü əhatə edən əsas mənbələr İskəndər bəy Münşinin “Tarix-i aləm aray-i Abbasi” əsəridir. Bundan əlavə Həsən bəy Rumlunun “Əhsən ət-təvarix”, Xacə Zeynəlabdin Əli Əbdi bəy Şirazinin “Təkamülətül-əxbar”, Qazi Əhməd Quminin “Xülasət ət-təvarix”, İbrahim Əfəndi Peçəvinin “Tarix”, eləcə də başqa mənbələrdə şəhərin tarixi, qısa da olsa, öz əksini tapmışdır.

Görkəmli tarixçi A.A. Bakixanovun “Gülüstan-i İrəm” əsəri də Dərbənd tarixinin öyrənilməsi baxımından maraqlı əsərdir. Əsərdə şəhər barədə geniş, dolğun məlumat var.

XVI əsrə dair farsdilli mənbələrdə də Dərbəndin tarixini əks etdirən tək-tək faktlara təsadüf edilir. Xandəmirin “Həbib üs-siyər”, Yəhya Qəzvinin “Lübb ət-təvarix”, Budaq Qəzvinin “Cəvahir əl-əxbar” və s. mənbələri sadalamaq olar.

XVIII əsrin I yarısında Dərbənd şəhərinin tarixini əsasən rəsmi sənədlərdən öyrənə bilirik. Onların əksəriyyəti Rusiya ilə Azərbaycan arasında gedən

yazışmalardan ibarətdir. I Pyotrun manifesti, Dərbənd naibi İmamqulunun I Pyotrun sarayına göndərdiyi 11 ərizə, Dərbənd müdafiəçiləri, tacirlər əhalisi tərəfindən I Pyotra göndərilən ərizə və məktublar və s. bu baxımdan maraqlı sənədlərdir.

Türk mənbələrində də Dərbəndin son orta əsrlər dövrünün xüsusilə də Səfəvilər hakimiyyəti illərindəki vəziyyəti barədə məlumat var. Türk tarixçiləri Səfəvi – Osmanlı müharibələrini şərh edərkən Azərbaycanla yanaşı Dərbənd şəhərində cərəyan edən hadisələri qələmə almışlar. İbrahim Əfəndi Peçəvinin "Tarix", Evliya Çələbinin "Səyahətnamə", Münəccimbaşının "Səyahif əl-əxbar" və s. əsərlər Dərbəndin xüsusilə 1578-1590-cı illər tarixinin öyrənilməsi üçün dəyərli mənbələr hesab edilə bilər.

Dərbəndin göstərilən dörv tarixi həmçinin Xristofor Berrounun, Azərbaycan tarixçisi Oruc bəy Bayatın ispan dilində yazdığı əsərinin, Adam Olearinin, Yan Streysin qeydlərində də öz əksini tapmışdır.

Dərbənd tarixi Azərbaycan, Rusiya-Dağıstan, Gurcüstan, həmçinin digər ölkələrin tədqiqatçıları tərəfindən daima maraqla araşdırılmış, şəhərin müxtəlif zamanlardakı siyasi-iqtisadi vəziyyəti, mədəni həyatı işıqlandırılmışdır. Təəssüf ki, bu yanaşmalar həmişə reallığı əks etdirmir. Belə ki, Rusiya və Dağıstan alimləri Dərbəndə daima Rusiya ərazisi kimi yanaşmış və əsərlərində bu şəhəri Rusiya şəhəri kimi (xüsusilə, 1806-cı ilədək) qələmə vermişlər. Azərbaycan tarixşünaslığında isə bu məsələdə digər nöqteyi-nəzər mövcuddur və şəhərin XIX əsrin əvvəllərinədək Azərbaycana məxsusluğu vurğulanır. Umumilikdə Dərbənd tarixini Ə.Ə.Əlizadə, Z.M.Bünyadov, S.B.Aşurbəyli, N.M.Vəlixanlı, Y.M.Mahmudov, M.X.Heydərov, S.M.Onullahi, V.Z.Piriyev, Ş.F.Fərzəliyev, M.Q.Seyidbəyli, C.İbrahimov, O.Ə.Əfəndiyev, S.A.Məmmədov, H.B.Abdullayev, F.M.Əliyev, T.T.Mustafazadə, C.M.Mustafayev və bir çox digər tarixçilərimiz tədqiq etmişlər. Rusiya tarixşünaslığında Dərbənd tarixi daha çox geniş və əhatəli tədqiq olunub. Belə ki, istər çar Rusiyası, istərsə də SSRİ dövründə həmçinin son dövrlərdə geniş həcmli maraqlı kitablar, monoqrafiyalar yazılmışdır. Dərbəndin tarixinə həsr olunmuş əsərlər içərisində Y.İ.Kobuzskinin "Dərbənd şəhərinin tarix", V.V.Bartoldun "Dərbənd", "Dərbənd tarixinə dair" adlı ensiklopedik məqalələrinin adlarını çəkmək olar.

Dərbənd tarixinin bir çox məsələləri Dağıstan tarixçiləri tərəfindən işıqlandırılıb. A.R.Şıxsəidov, A.A.Kudryavtsev, R.M.Maqomedov, S.Xan-Maqomedov, M.M.İxilov, X.A.Xızrıyev, Q.A.İçalov və b. müəlliflərin əsərləri bu baxımdan diqqətəlayiqdirlər.

Avropa tarixşünaslığında da Dərbənd tarixinə yer ayrılmışdır. H.Hovorsun, G.Vamberinin, G.Vernadskinin və b. əsərlərində tarixi hadisələrin təhlili zamanı xüsusilə Teymur və Toxtamışla əlaqədar hadisələrin şərhi zamanı Dərbənd şəhəri də sıx-sıx xatırlanır.

Son orta əsrlərdə Dərbənd şəhərinin ictimai-iqtisadi, mədəni-mənəvi həyatı haqqında danışılarkən ilk növbədə şəhərin orta əsr şərq şəhəri olduğunu nəzərə almaq lazımdır. Dövrünün digər şəhərləri kimi Dərbənd də tərkibində

mövcud olduğu dövlətin bütün sahələrinə xas olan cəhətlərə, bütün şəhərlərlə eyni xüsusiyyətlərə malik olmuşdur. Bildiyimiz kimi Dərbəndin idarəsi də Hülakilər, Cəlalilər, Qaraqoyunlu, Ağqoyunlu və Səfəvi dövlətinin digər şəhərlərinin idarəsi sistemində, onlara uyğun şəkildə həyata keçirilmişdir.

Son orta əsrlər Dərbəndi Azərbaycanın mədəni mərkəzlərindən biri kimi diqqəti cəlb edir. Mənbələrdən məlum olur ki, şəhər istər təhsil, istər mədəniyyət istərsə də elm sahələrində bir sıra görkəmli xadimlər yetişdirib. Dərbənddə məktəblər və Ali mədrəsələr mövcud olmuş, dəqiq və dini elm sahələrində çalışan mütəxəssislər fəaliyyət göstərmişdir.

Bir çox yerlərdə olduğu kimi son orta əsrlər Dərbənddə də elmin, mədəniyyətin inkişafı təhsilin səviyyəsi ilə bağlı idi. Erkən orta əsrlərdən mövcud olan təhsil sistemi sonralar da öz işini davam etdirmişdi. Məscidlərdə, mollaxanalarda isə dini təhsil verilirdi. Onu qeyd etmək lazımdır ki dini təhsil üstünlük təşkil edirdi. Bu barədə Əbdürrəşid Bakuvi məlumat verir. Müəllif həmçinin Dərbənd hasarı barədə məlumat verərkən onun dəniz suları ilə əhatə olunduğunu, uzunluğunun 3 fərsəngə yaxın (təx. 20 km), eninin bir ox ucu uçuşu məsafədə olduğunu, çoxlu qüllələrə malik olduğunu yazır. Onun məlumatında diqqəti cəlb edən əsas məsələ hər bir qüllənin üzərində dini biliklərlə məşğul olan şagirdlər üçün məscidin tikildiyini bildirməsidir. Müəllif yazır: "Dərbəndin dəmir darvazaları və çoxlu qüllələri var. Hər bir qüllənin üzərində olan yazılar dini elmlərlə məşğul olan şagirdlər üçün mövcuddur (1, 88). Dərbənddə mədrəsələrlə yanaşı Ali müsəlman məktəbi fəaliyyət göstərirdi. Bu elm ocağı şəhərin Cümə məscidi nəzdində idi və təkcə Dərbənddə deyil, Dağıstanın dağlıq ərazilərində İslam dininin yayılmasında mühüm rol oynayırdı. Mədrəsədə həmçinin ərəb elminin yayılması istiqamətində işlər aparılırdı (2, 92).

Mədrəsələrdə həyata keçirilən dini təhsil haqqında epikrafik məlumatlar da var. Belə ki, Cümə məscidinin həyətində yerləşən "Fərruxiyyə" məscidində 1474-cü ilə aid kitabədə deyilir ki: "Uca olan Allah – Ona həmd olsun – dedi: "Elm verilmiş şəxsləri Allah müxtəlif dərəcələrə qaldırır". Dünyada ləyaqətli əxlaq sahibi zəmanə əmirlərinin ən ədalətlisi Sultan Şirənşah məxsusən Allahın xatirinə və onun mərhəmətini qazanmaq və qəzəbindən qaçmaqdan ötrü orada qiyamət gününə qədər şəriət elmlərini öyrənən tələbələr üçün bu mübarək mədrəsənin tikilməsi barədə hicri səkkiz yüz yetmiş doqquzuncu ildə əmr etmişdir." Mətndən də aydın göründüyü kimi, elm adamlarına şəhərdə xüsusi qiymət verilirdi.

İlk mənbələrdən göründüyü kimi, orta əsrlərdə bir çox görkəmli şəxsiyyətlər Dərbənddə olmuş və şəhərin elmi-mədəni həyatı ilə maraqlanmışlar. Vilhelm Rubruk (3, 81), vəzir Şəmsəddin Cüveyni (4, 92), daha sonralar Vasili Panin, Ambrosi Kontarini, Afanasi Nikitin və b. görkəmli şəxsiyyətlərin Dərbənddə olmaları barədə faktlar mövcuddur. Onlar şəhərin ümumi vəziyyəti ilə tanış olmuş, siyasi-iqtisadi, mədəni-mənəvi həyatı barədə müəyyən fikirlər irəli sürmüşlər.

XV əsrdən etibarən Şirvanın iqtisadi və siyasi cəhətdən inkişafı Mos-

kvanın diqqətini cəlb edir. Məhz elə bu zamanlardan başlayaraq Şirvan ilə Dərbənd arasında mədəni əlaqələr genişlənməyə başlamışdı. Moskva ilə Şirvan arasındakı münasibətlərdə Dərbənd şəhərinin xüsusi əhəmiyyəti var idi. Moskvadan cənuba və əks istiqamətə gəlib-gedən dövlət, elm və mədəniyyət xadimləri məhz Dərbənddən keçməli olur və şəhər ilə tanış olaraq onun iqtisadi, mədəni həyatı barədə müəyyən fikirlər söyləyirdilər. Bildiyimiz kimi, elə bu dövrdə Şirvan şahı I Fərrux Yasar öz nümayəndə heyətini ticarət və diplomatik əlaqələri daha da möhkəmləndirmək üçün Moskvaya göndərir (1465), bir il sonra buna cavab olaraq Vasili Paninin başçılığı ilə Rusiya nümayəndə heyəti Şirvana gəlir (1466), 1475-ci ildə isə Ağqoyunlu dövlətinin elçisi, Venesiya səfiri Ambroci Kontarini digər səfirlərlə birlikdə Təbrizdən Moskvaya yola düşürlər. Nümayəndə heyəti Tiflis, Kutaisi və Şamaxı şəhərlərindən sonra 12 noyabrda Dərbəndə çatır. Və yalnız 1476-cı ilin mart ayında şəhərdən çıxıb şimala doğru səfərə davam edirlər.

Yuxarıda qeyd edildiyi kimi Şirvanla Dərbənd arasında mədəni əlaqələr genişlənirdi. Bunun nəticəsi kimi də hər birinin özünəməxsus maddi və dini-mədəni cəhətləri olan çoxlu oxşar və ümumi xüsusiyyətlər yaranmağa başladı. Şirvan şahları Dərbənd ərazisində coxlu sayda tikililər inşa etməyə başladılar. Bunlar əsasən məscid və mədrəsələr idi (5, 261)

Məlum olduğu kimi, orta əsrlərdə məscidlər təkcə dini mərkəzlər deyildi. Onlar dini mərasimlər keçirmək, dini biliklər aşılamaqla yanaşı, ictimai-elmi, elmi-mədəni mərkəzlər hesab olunurdular. Məscidlərdə təkcə ilahiyyata və fəlsəfəyə aid əsərlər, əlyazmalardan deyil, dəqiq elmlərə aid əsərlərdən də söhbət açılır, onların müzakirəsi keçirilir, fikir mübadiləsi aparılırdı. İlahiyyatçı alimlər, şəxsiyyətlərlə yanaşı məscidlərə görkəmli alimlər toplaşar, dövrün siyasi, iqtisadi, mədəni-mənəvi həyatından söhbət açar, fikir mübadiləsi edər və öz mövqelərini bildirərdilər. Bu isə məscidlərin ölkənin təkcə dini həyatında deyil, ictimai-iqtisadi, mədəni həyatında da aparıcı rol oynadığının göstəricisidir.

Şirvanla Dərbənd arasındakı memarlıq sahəsindəki əlaqələr daha sonrakı dövlərdə də davam etmişdir. Hətta bu öz əksini Riça şəhərindəki məscidin minarəsinin bərpası zamanı qələmə alınmış kitabədə də tapıb. Yazıda deyilir ki, 1674-1675 illərdə Şirvan vilayətindən olan Hacı Məhəmməd və Hacı Ramazan bu minarəni yenidən qurmuşlar (6, 116-117).

Dərbənddə elm və mədəniyyətin inkişafı şəhərin Şərq xalqları mədəniyyətinin Dağıstanın dağlıq ərazilərində yayılmasında mühüm mövqe tutan iri mədəniyyət mərkəzinə çevrilməsinə səbəb olmuşdu. Prof. R.M.Maqomedov bu məsələdən bəhs edərək yazır ki, Şərq mədəniyyəti və elmi məhz Dərbənddən ətraf ərazilərə sirayət edirdi. Dərbənddə müsəlman aləminin qədim adət-ənənələri çox güclü idi. Şəhərdə ərəblər yaşayırdılar və onların arasında Şərq ölkələrində təhsil alan görkəmli alimlər, xüsusilə, ilahiyyatçılar az deyildi. Dərbəndin Cümə məscidi nəzdində Ali müsəlman məktəbi – Ali mədrəsə vardı. Burada Dağıstanın dağlıq ərazilərinə İslam dini yayılırdı. Qaytaq, Tabasaran

və Samurun yuxarı axarındakı ərazilərə bunun təsiri daha güclü idi (2, 92).

Bəhs olunan dövrdə Şirvanda memarlıq məktəbi, daş və taxta üzərində oyma sənətinin öyrədildiyi məktəblər fəaliyyət göstərirdi. Məhz bu məktəbin yetirmələri olan Şirvan ustalarının bir çoxunun adlarına Dərbənddə və ümumiyyətlə, Dağıstan ərazisindəki epiqrafik abidələrdə rast gəlinir. Mənbələr Əbu Rəşid Zeyn ad-din Şirvani, Sədr Sarım bəy Aslan, Məhəmməd Arif, Şeyx Sultan və b. adlarını çəkir (7, 31). Onu da qeyd etmək lazımdır ki, yalnız Şirvan sənətkarları deyil Dərbəndli ustalar da Şirvanda fəaliyyət göstərirdilər (7, 32). Şirvan memarlığının təsiri özunu qəbir abidələrində də göstərirdi. Belə ki, Dərbənddə üzərində işləməli qəbir daşlarına rast gəlinir ki, bu XVI-XVIII əsr Şirvanda geniş yayılmış qəbir abidələrinin təsiri ilə meydana gəlmişdi (8, 12).

Bu iki şəhər arasında elm sahəsində də əlaqələr inkişaf edirdi. Şirvan daxil olmaqla bütün Azərbaycan Dərbənd alimləri üzərində mədəni təsirlərini saxlaya bilmişdilər. Bir çox Dağıstan alimləri Şirvanda, xüsusilə də Şamaxı şəhərində təhsil alır və öz biliklərini genişləndirirdilər (9, 63-64). Burada təhsil aldıqları üçün ənənəvi Azərbaycan elmi və ədəbiyyatını da mənimsəyirdilər. Və bir çox ədəbiyyat nümunələrini özləri ilə Dağıstan ərazisinə gətirirdilər. XVI əsrdə Dərbənddə azərbaycanlı alim Əl-Bərdan tərəfindən qələmə alınmız Əl Ərdəbilinin traktatı geniş yayılmışdı. Bu müsəlman qanunları, məntiq və astranomiya haqqında çox qiymətli əsərdir.

Tarixi faktlar Dərbənddə elmin, demək olar ki, bütün sahələrinin inkişaf etdiyindən xəbər verir. Bəzi elm sahələrinin inkişafı tək-tək nəzərə çarpan faktlardan məlum olursa, onların dərbəndli nümayəndələrinin adları bəllidirsə, digər sahələr barədə (məsələn, memarlıq, tarixşünaslıq, fəlsəfə və s.) daha ətraflı məlumat əldə etmək mümkündür, bəzi sahələrin haqqında isə faktlara təsadüf olunmur. Lakin bu həmin elm sahələrinin Dərbənddə inkişaf etmədiyini bildirmir.

Mənbələrin verdiyi məlumatlardan məlum olur ki, Dərbənd şəhəri XVI-XVIII əsrlərdə Azərbaycanın, Qafqazın və ümumiyyətlə, Şərqin mədəniyyət və elm mərkəzlərindən olmuşdur. Şəhərdə ibtidai, orta və ali təhsil müəssisələri fəaliyyət göstərmişdir. İbtidai təhsil əsasən məscidlərdə, mollaxanalarda həyata keçirilmiş və burada dini təlimlərə, Quran oxunmasına üstünlük verilmişdir. Orta və ali təhsil isə mədrəsələrdə həyata keçirilirdi. Şəhərdə adi mədrəsələrlə yanaşı Ali mədrəsə də mövcud idi. Cümə məscidinin nəzdindəki Ali mədrəsə bölgədə elmin və mədəniyyətin inkişafında xüsusi mövqe tuturdu. Məhz həmin mədrəsənin sayəsində Dərbənd Dağıstanın dağlıq ərazilərində Şərq xalqları mədəniyyətini yayan mərkəzə çevrilmişdi.

Şəhərdə dini elmlərlə yanaşı dəqiq elm sahələri də inkişaf edirdi. Fəlsəfə, ədəbiyyat, tarix, nücum, memarlıq və s. sahələrin inkişafı barədəki faktlar bunu təsdiq edir. Dərbənd alimləri, elm xadimləri təkcə Qafqazda deyil, Şərq ölkələrində də tanınırdılar. Belə şəxslərin bir çoxunun adları ilk mənbələrdə və Dərbəndin epiqrafik abidələrində əks olunmuşdur. Dərbənd şəhəri bir sıra görkəmli şəxsiyyətlərin – səyyahların, diplomatların, alimlərin gəldikləri məkan

idi və onlar öz xatirələrində şəhərin mədəni həyatı barədə də mülahizələr irəli sürmüşlər. Bütün bunlar Dərbəndin bəhs olunan əsrlərdə elm və mədəniyyət mərkəzlərindən biri olduğunu təsdiqləyir.

## ƏDƏBİYYAT


1. Абд ар-рашид ал-Бакуви. Китаб талхис ал-асар ва "аджа"иб ал-малик ал-каххар. М.: Наука, 1971, 162 с.
2. Магомедов, Р.М. История Дагестана. Махачкала: 1968, 340 с.
3. Бартолдь В.В. Краткий обзор истории Азербайджана. Соч., том 11, ч.1.
4. Фазлуллах Рашид ад-дин. Джами ат-таварих. Том III. Баку: 1957, 391 с.
5. Ашурбейли С.Б. Государство Ширваншахов. Баку: Элм, 1989, 344 s.
6. Шыхсаидов А.Р. Арабские строительные надписи Дагестана (XI-XVII вв) //УЗ ИИЯЛ ДФ АН СССР. Махачкала, 1977, с. 99-119
7. Неймат М.С. Корпус эпиграфических памятников Азербайджана. Баку 1991
8. Килчевская Э.В., Иванов А.С. Художественные промыслы Дагестана. М.: Всесоюзн.коопет.изд-во, 1959, 176 с.
9. Шыхсаидов А.Р. Взаимоотношения народов Дагестана и Азербайджана XIV-XVI вв.// РФ ИИАЭ ДНЦ РАН. Ф.3. Оп.1.Д. 233. Л.63-64.
10. Azərbaycan tarixi üzrə qaynaqlar. Bakı: AU nəşr, 1989, 326 s.
11. Azərbaycan Sovet Ensiklopediyası. I-X cildlər. Bakı: 1978-1987.
12. Azərbaycan tarixi, 7 cilddə, III c. Bakı: Elm, 1999, 534 s.
13. Fərzəliyev Ş. Azərbaycan XV-XVI əsrlərdə, Bakı, Elm, 1983, 152 s.
14. Xacə Zeynəlabdin Əli Əbdi bəy Şirazi. Təkmilətül əxbar. Bakı: Elm, 1996, 200 s.
15. Mahmudov Y.M. Azərbaycan tarixi. İntibah dövrü. Bakı: Altay dünyası, 1996, 84 s.
16. Məmmədova Ş. "Xülasət-ət təvarix" Azərbaycan tarixinin mənbəyi kimi. Bakı: Elm, 1991, 120 s.
17. Onullahi S. XIII-XVII əsrlərdə Təbriz şəhəri. Bakı: Elm, 1982, 280 s.
18. Ахмедов Я.З. Очерки политической истории народов Северного Кавказа в XVI-XVII вв. Грозный: 1988, 176 s.
19. Ашурбейли С.Б. История города Баку. Баку: 1992, 402 s. М.: 1953, с. 775-783.
20. История народов Северного Кавказа. М.: Наука, 1988, 544 s.
21. История народов Северного Кавказа с древнейших времен до конца XVIII в. М.: 1988, с.258
22. Кудрявцев. А.А. Дербендский проход. ВИ, 1976, 38 s.
23. Козубский Е.И. История Дербента. Темирхан-Шура. 1906, 468 с.
24. Петрушевский И.П. Азербайджан в XVI-XVII вв. В сб.: ССИА, вып. I, Баку: 1949, с.225-298.
25. Рахмани А.А. "Тарих-и алам арай-и Аббаси" как источник по истории Азербайджана. Баку: АН Азерб. ССР, 1960, 192s
26. Мамедов С.А. Азербайджан по источникам XV- первой половины XVIII вв. Баку: Элм, 1993, 238 s.
27. Эфендиев О. Азербайджанское государство сефевидов в XVI веке. Баку: Элм, 1981, 24 с.

## КУЛЬТУРНАЯ ЖИЗНЬ ДЕРБЕНТА В XVI - XVIII вв.

**М.В.БАХРАМОВА**

### РЕЗЮМЕ

В данной статье на основе многочисленных источников даются краткие сведения о городе Дербенте и его культурной жизни. Дербент был одним из культурных центров Кавказа, тем самым играл роль моста в торгово-экономических и культурных связях Азербайджана с Дагестаном.

В период позднего средневековье оказывал большое влияние на культурную жизнь соседних народов.

**Ключевые слова:** Дербент, культурная жизнь, религиозная образование

## DARBAND'S CULTURAL LIFE
## IN THE XVI – XVIII CENTURIES

**M.V.BAHRAMOVA**

### SUMMARY

The article provides brief information about the city of Darband on the basis of a number of sources. Darband was one of the cultural centres of the Caucasus and played the role of a bridge in the economical and cultural relations of Azerbaijan with Dagestan.

**Key words:** Darband, cultural life, religious education